# Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının 4-cü iclası keçirilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Azərbaycan Prokurorluğu beynəlxalq tərəfdaşlarla və nüfuzlu təşkilatlarla səmərəli əməkdaşlığını davam etdirir.

Bu çərçivədə sentyabrın 15-də Heydər Əliyev Mərkəzində 1992-ci ildən ölkəmizin üzv olmaqla səmərəli əməkdaşlıq, həmçinin 2023-cü ildən sədrlik etdiyi İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının 4-cü iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, yüksəksəviyyəli iclasda İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibinin müavini, Türkiyə, Özbəkistan, İran, Qazaxıstan, Qırğız, Tacikistan baş prokurorları, Türkiyənin ədliyyə naziri və Türkmənistanın baş prokuroru müavininin rəhbərlik etdikləri nümayəndə heyətləri, eləcə də digər rəsmi şəxslər iştirak ediblər.

Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev təşkilatın 4-cü iclasının müasir müstəqil dövlətimizin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə təsadüf etməsini tarixi hadisə adlandıraraq Ulu Öndərin İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əlaqələrə daim önəm verdiyini, bu gün ölkəmizlə təşkilat arasındakı qarşılıqlı əlaqələrin yüksək səviyyədə inkişaf etməsinin məhz dahi şəxsiyyətin uzaqgörən siyasətinin nəticəsi olduğunu vurğulayıb.

Kamran Əliyev müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dövlətinin ilk daxil olduğu qurumlardan birinin İqtisadi Əməkdaşlıq Təşkilatı olduğunu diqqətə çatdırıb. Baş prokuror təşkilata üzv olan ölkələrlə Azərbaycanı ortaq tarix, din, regional iqtisadi və siyasi maraqların birləşdirdiyini qeyd edib.

Çıxış edən İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibinin müavini Jandos Asanov ölkəmizin sədrliyi dövründə təşkilata üzv dövlətlərin Baş prokurorlarının 4-cü iclasının keçirilməsi münasibətilə iştirakçıları təbrik edərək bildirib ki, Azərbaycan regional və beynəlxalq iqtisadi təşəbbüsləri hər zaman dəstəkləyən və bu işlərə böyük töhfələr verən bir dövlət olaraq üzv olan dövlətlərlə bir sıra prioritet sahələr, o cümlədən ticarət, investisiya, enerji, ətraf mühit və cinayətkarlığa qarşı mübarizə sahələri üzrə əməkdaşlıq edir.

Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hüquq islahatları, müxtəlif növ cinayətlərə qarşı mübarizədə ölkəmizin əldə etdiyi nailiyyətlər barədə iştirakçılara məlumat verib.

Bundan sonra nümayəndə heyətləri müxtəlif aktual mövzularda, o cümlədən narkotik qaçaqmalçılığı, kibercinayətkarlıq və digər cinayətlərə qarşı mübarizə, prokurorluğun fəaliyyətinin rəqəmsallaşdırılması sahəsində ölkələrinin əldə etdiyi müsbət nəticələr barədə təcrübə mübadiləsi aparıblar.

Tədbirdə təşkilati məsələlərə baxılaraq, iclasın yekunlarına dair protokol və bəyannamə qəbul edilib.

Azərbaycan. - 2023.- 16 sentyabr.- S.7.